Bilənlər bilir, bilməyənlər bilsinlər...

# Azərbaycanda ilk dəfə

*Qədim tarixə və zəngin keçmişə malik odlar yurdu Azərbaycanın sayılıb-seçilən bölgələrindən biri olan Qazax torpağı elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət və hərb sahəsində adlı-sanlı, şanlı-şöhrətli korifeylər-şairlər, yazıçılar, alimlər, akademiklər, pedaqoqlar, sərkərdələr, generallar, qəhrəmanlar, pəhləvanlar yetişdirmişdir.*

*Şairlər vətəni Qazax torpağı elə görkəmli şəxsiyyətlər yetişdirmişdir ki, onlar öz qabiliyyətləri, istedadları ilə Azərbaycanda birincilər cərgəsində olmuşlar. Kimdir onlar? Buyurun, siz də tanış olun.*

1. İlk pianoçu qadın, Şərqdə ilk konservatoriyanın yaradıcısı – Xədicə Qayıbova.
2. İlk hərbi tibb bacısı, ilk azərbaycanlı ali təhsilli qadın – Nigar xanım Şıxlinski.
3. İlk hərbi təyyarəçi – Fərrux ağa Qayıbov.
4. Qori Müəllimlər Seminariyasının ilk məzunu, Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru, əməkdar elm xadimi, professor – Əhməd Seyidov.
5. Zaqafqaziyanın ilk müftisi – Mirzə Hüseyn Əfəndi Qayıbov.
6. Azərbaycanda ilk poliklinikanın yaradıcısı – Məmmədrza Vəkilov.
7. İlk hərbi həkim – İbrahim Rəhimov.
8. İlk topoqraf general – İbrahim ağa Vəkilov.
9. İlk «Qarabağnamə» əsərinin müəllifi – Mirzə Bəy.
10. Azərbaycan Milli Teatrının yaradıcılarından biri, 1873-cü ildə Hacı Qara rolunun ilk ifaçısı – Əsgər ağa Gorani (Adıgözəlov).
11. İlk spiker, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ilk sədri, Azərbaycanın ilk Konstitusiyasını imzalayan – Muxtar Hacıyev.
12. İlk avtomotoloq qadın, professor – Sona Vəlixanlı.
13. İlk azərbaycanlı rəssam qadın – Qeysər Kaşıyeva. (Şirin bəy Kəsəmənlinin həyat yoldaşı).
14. Qadınlar arasında ilk xalq şairəsi – Mirvarid Dilbazi.
15. Azərbaycanın ilk xalq şairi, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademiki, Azərbaycan şairləri arasında ilk dəfə Dövlət mükafatı ödülünü alan – Səməd Vurğun.
16. İlk xalq yazıçısı – Mehdi Hüseyn.
17. İlk heykəltəraş qadınlardan biri – Elmira Hüseynova.
18. İlk balerina, SSRİ xalq artisti – Leyla Vəkilova.
19. İlk rəqqasələrdən biri, xalq artisti – Əminə Dilbazi.
20. Azərbaycan Yazıçılar İttifaqının ilk sədri, yazıçı-publisist – Seyfulla Şamilov.
21. Müqəddəs Georgi ordeninin dörd dərəcəsi ilə təltif olunmuş 3 azərbaycanlıdan biri – Sayad Zeynalov.

Görürsünüzmü, doğrudan da Qazax torpağı görkəmli şəxsiyyətlər yetirib. Şair Barat Vüsal demişkən:

***Bu torpağın mayasında nə varsa,***
***Bilirsənmi nə insanlar yetirir!?***
***Elə-belə adamları yetirməz***
***Ya dahilər, ya azmanlar yetirir!***

**Kazım ABDULLAOĞLU**